QANUN № 02 (376), 2026, s. 26-31



**Əliyev Sübhan Fərmayıl oğlu,**
"Sirius" Vəkil Bürosunun vəkili, Bakı Dövlət Universitetinin Konstitusiya hüququ kafedrasının professoru, hüquq elmləri doktoru
Ünvan: Bakı şəhəri, Akademik Zahid Xəlilov küçəsi, 33
E-mail: subhanaliyev3777@gmail.com
**Məmmədli Lalə Firdovsi qızı,**
"Sirius" Vəkil Bürosunun vəkili, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının müəllimi, Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının "İnzibati hüquq, maliyyə hüququ, informasiya hüququ" ixtisaslaşması üzrə doktorantı
Ünvan:  Bakı şəhəri, Sabunçu rayonu, Maştağa qəsəbəsi, Zabrat-Maştağa şossesi, 2
E-mail: mammadlilala25@gmail.com

**UOT 342.95**
**DOI: https://doi.org/10.30546/2218-9130.043.2026.516**

# ÖHDƏLİYİN İCRASI İDDİALARI İLƏ BAĞLI MƏHKƏMƏ QƏRARLARININ İCRASI XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *inzibati ədliyyə, məhkəmə qərarlarının icrası, öhdəliyin icrası iddiaları, məcburi icra, astreinte, commissario ad acta, hüquqi və faktiki imkansızlıq, effektiv hüquqi müdafiə, məhkəmə nəzarəti, Kronofogden, LJCA, VwGO.*

***Ключевые слова:*** *административное правосудие, исполнение судебных решений, иски о принудительном исполнении обязательств, принудительное исполнение, астренте, commissario ad acta, юридическая и фактическая невозможность, эффективная правовая защита, судебный надзор, Kronofogden, LJCA, VwGO.*

***Keywords:*** *administrative justice, enforcement of judgments, claims for performance of obligations, compulsory enforcement, astreinte (daily fines), commissario ad acta, legal and factual impossibility, effective judicial protection, judicial oversight, Swedish Enforcement Authority (Kronofogden), LJCA, VwGO.*

## Giriş

İnzibati məhkəmə icraatında çıxarılan qərarların icrası hüquqi müdafiə mexanizminin ən vacib və həlledici mərhələsidir. Məhkəmə qərarının hüquqi qüvvəyə minməsi və formal şəkildə tanınması hüququn təmin olunması üçün yetərli deyil. Bu qərarların real həyatda tətbiq olunması, inzibati orqanların üzərinə düşən konkret hüquqi öhdəlikləri yerinə yetirməsi və vətəndaşların subyektiv hüquqlarının faktiki şəkildə bərpası da zəruridir. Bu baxımdan icra mərhələsi hüququn aliliyinin təminatçısı kimi çıxış edir və idarəetmənin məsuliyyət daşıması, qanunçuluq prinsipi və effektiv hüquqi müdafiə hüququnun reallaşdırılması baxımından əvəzolunmaz rol oynayır.

Bu məqalədə inzibati məhkəmə qərarlarının icrası məsələsi müqayisəli hüquqi aspektdə tədqiq edilir. Araşdırma zamanı müxtəlif dövlətlərin qanunvericiliyi və məhkəmə təcrübəsi əsasında icra mərhələsinin əsas hüquqi prinsipləri, icra mexanizmləri, inzibati orqanların məsuliyyət formaları, məcburi icra prosedurları, ombudsman

və parlament nəzarəti, eləcə də qərarların icrasını təmin edən əlavə vasitələr təhlil edilir. Məqalənin məqsədi Azərbaycan hüquq sistemində inzibati məhkəmə qərarlarının icrasının effektivliyini artırmaq üçün beynəlxalq təcrübədən çıxış edərək təkmilləşdirmə istiqamətləri təklif etməkdir.

**I. Öhdəliyin icrası haqqında iddialarla bağlı məhkəmə qərarlarının icrası anlayışı**

İnzibati məhkəmə icraatında öhdəliyin icrası haqqında iddialar üzrə çıxarılan qərarların icrası hüququn aliliyinin təmin edilməsində həlledici rol oynayır. Belə qərarların icrası yalnız məhkəmənin verdiyi qərarın hüquqi qüvvəyə minməsi və məhkəmə müdafiəsinin nəzəri səviyyədə tanınması ilə kifayətlənmir, həm də həmin qərarların tətbiq olunmasını, inzibati orqanların konkret hüquqi öhdəliklərini yerinə yetirməsini və vətəndaşların subyektiv hüquqlarının faktiki təmin edilməsini şərtləndirir. Öhdəliyin icrası haqqında iddialar vasitəsilə inzibati məhkəmə inzibati orqanın üzərinə müəyyən bir faktiki xarakterli hərəkəti yerinə yetirmək öhdəliyi qoyur və bu qərarların icrası hüquqi dövlət prinsipinin, qanunçuluq və inzibati orqanın məsuliyyət daşıması kimi fundamental prinsiplərin həyata keçirilməsində mühüm vasitə rolunu oynayır. Məhz buna görə də inzibati məhkəmə qərarlarının icrası məsələsi müasir inzibati prosessual hüquqda təkcə texniki-prosessual mərhələ deyil, eyni zamanda dövlət orqanlarının fəaliyyətinin hüquqa bağlılığını təmin edən və effektiv hüquqi müdafiə hüququnu reallaşdıran əsas institutlardan biri hesab olunur.

Azərbaycan Respublikası İPM-nin 79.1-ci maddəsinə əsasən məhkəmə qərarı qanuni qüvvəyə mindikdən sonra icra olunur [1]. Azərbaycan Respublikası İPM-nin 79.2-ci maddəsinə əsasən Məhkəmə qərarının borclu tərəfindən könüllü şəkildə icra olunmadığı hallarda, həmin qərarın icrası İPM-in müvafiq fəslində və "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada həyata keçirilir [1].

Ümumiyyətlə, inzibati məhkəmənin qərarlarının icrasına nəzarət əsasən inzibati orqanların üzərinə düşür, yalnız bəzi hallarda məhkəmənin özünün birbaşa icra səlahiyyəti nəzərdə tutulur. Lakin qərarın icrasına cavabdeh konkret inzibati qurumun təyin olunması dövlətlər arasında fərqli ola bilər [5, s. 19]. Azərbaycan Respublikası İPM-nin 116.2-ci maddəsi də nəzərdə tutur ki, məhkəmə qərarının icrası birinci instansiya məhkəməsi tərəfindən təmin edilir [1].

Əksər hüquq sistemlərində inzibati məhkəmə qərarının icrasını həyata keçirmək məsuliyyəti məhz məhkəmə nəzarətinə cəlb edilmiş inzibati orqanın üzərinə düşür (məsələn, Avstraliya və Finlandiyada olduğu kimi). İsveçrədə də əsas qayda eynidir, lakin hakim qərarın icrasını daha səmərəli təmin edə biləcək başqa bir orqanın təyin edilməsi barədə də qərar verilə bilər. Bundan əlavə, bəzi İsveçrə kantonlarında bir neçə inzibati orqana əvəzedici icra səlahiyyəti verilmişdir [11].

Məhkəmə qərarlarının icrası (o cümlədən məcburi icra vasitələrinin tətbiqi) çox vaxt məhkəmənin özü tərəfindən, ya birbaşa şəkildə, ya da digər inzibati orqanların və ya agentliklərin köməyi ilə nəzarət altında həyata keçirilir. Məsələn, İspaniyada konstitusiya bu məsələni çox aydın şəkildə tənzimləyir. İspaniya Konstitusiyasının 117.3-cü maddəsi məhkəmələrin və hakimlərin öz qərarlarını icra etmək səlahiyyətini *juzgar y hacer ejecutar lo juzgado*, yəni qərar vermək və verilən qərarı icra etmək səlahiyyəti olaraq açıq şəkildə təsbit edir [5]. Portuqaliya və Yunanıstanda isə konstitusiya inzibati orqanların inzibati məhkəmə qərarlarını icra etmək vəzifəsini xüsusi vurğulayır. Belə ki, Türkiyə Konstitusiyasının 138.4-cü maddəsi, Portuqaliya Konstitusiyasının 203-cü maddəsi, Yunanıstan Konstitusiyasının 93.3-cü maddəsi analoji normaları təsbit edir [10]. Bu nümunələr göstərir ki, bir çox hüquq sistemlərində inzibati məhkəmə qərarlarının icrası yalnız inzibati

orqanların məsuliyyəti ilə məhdudlaşmır, həm də məhkəmənin öz nəzarət funksiyası və konstitusiya səviyyəsində təminat ilə gücləndirilir.

Azərbaycan Respublikası qanunvericiliyinə münasibət isə icra haqqında qərardadda icra tədbirlərini müəyyən edir. Həmin qərardadda məhkəmə müəyyən edilmiş icra tədbirlərin həyata keçirilməsini müvafiq səlahiyyətli orqana tapşırır. Müvafiq səlahiyyətli orqanın üzərinə isə qanunvericiliklə həmin tapşırığı (icra tədbirlərini) məhkəmə qərarlarının icrası ilə bağlı qüvvədə olan qanunvericiliyə uyğun olaraq yerinə yetirmək vəzifəsini qoyur. Belə ki, qüvvədə olan qanunvericiliyə əsasən məhkəmə qərarlarının icrasına İPM-lə fərqli qayda nəzərdə tutulmadığı halda Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin və "İcra haqqında" Azərbaycan Respublikası Qanununun müvafiq müddəaları tətbiq olunur [9, s. 662].

**II. Öhdəliyin icrası haqqında iddialarla bağlı qərarların icrasının mümkünsüzlüyü**

İcra tədbirlərinə nəzarət edən məhkəmə orqanı ilə bağlı da əhəmiyyətli fərqlər mövcuddur. Məsələn, İspaniyada icra tədbirlərinə nəzarət və onların həyata keçirilməsi səlahiyyəti əsas işi həll etmiş səlahiyyətli məhkəməyə, yəni həm birinci instansiya, həm də son instansiya məhkəməsinə məxsusdur [6].

Bəzi hüquq sistemlərində isə məhkəmələr və ya məhkəmə nəzarətini həyata keçirən digər orqanlar icra səlahiyyətindən məhrum edilmişdir. Məsələn, Avstraliyada inzibati işlər üzrə ən yüksək qərarverici orqan olan Administrative Appeals Tribunal klassik mənada məhkəmə hesab edilmir.

Məhkəmə qərarlarını təsirsiz etmək məqsədilə həyata keçirilən hər bir əməliyyat qanunsuz hesab edilməli və dərhal ləğv edilmə sanksiyasına tabe olmalıdır. Belə hər bir əməliyyat konstitusiya qaydalarına və hüquq normalarına zidd olduğu üçün məhkəmə tərəfindən gecikmədən ləğv edilməlidir. Eyni qayda inzibati məhkəmə qərarlarının icrasının təmin edilməməsi istiqamətində verilmiş əmr və göstərişlərə də şamil edilir; bu hallarda qanunsuz əmri verən şəxslər barəsində müvafiq cinayət məsuliyyəti tətbiq olunmalıdır [ 8, s. 863].

**III. Öhdəliyin icrası haqqında iddialarla bağlı qərarların məcburi icra qaydası**

Məhkəmənin qərarı çıxarılmadan əvvəl, xüsusi şəxslər bəzən qərarın gələcəkdə icra edilməməsi riskinin qarşısını almaq üçün müəyyən tədbirlər görülməsini tələb edə bilər və məhkəmə də bu tələbi təmin edə bilər. Fransada bu kimi tədbirlər "təcili prosedurlar" *(procédures d'urgence)*, "təcili tədbirlər" *(mesures d'urgence)* və ya "müvəqqəti tədbirlər" *(mesures provisoires)* adlanır. Bu tədbirlər hüququn yaranma anı ilə məhkəmənin həmin hüququ tanıması və qərarın icra olunması anı arasında keçən vaxt fərqindən irəli gəlir. Daha dəqiq desək, bu zaman fərqi çox vaxt məhkəmə qərarının nəhayət icra edildiyi anda başa çatır. Fransız hesabatında 30 iyun 2000-ci il tarixli Qanununun L.521-1 və L.521-2-ci maddələri bu mexanizmlərlə bağlı tənzimləmələri nəzərdə tutur:

1. *référé-suspension*, yəni inzibati aktın icrasının müvəqqəti dayandırılması;

2. *référé-liberté fondamentale,* yəni əsas hüquqların qorunmasına yönəlmiş müvəqqəti tədbir [3].

Almaniya İnzibati Məhkəmə İcraatı haqqında Qanunun 80-ci maddəsinə əsasən bu cür təcili tədbirlər mümkündür, lakin burada mühüm bir xüsusiyyət mövcuddur. Müvəqqəti tədbirlər bütün hüquq sistemlərində ortaq olan ümumi qaydalara əsaslanır və iki şərt yerinə yetirilməlidir:

1. tədbir hüquq və maraqlara ciddi və bərpaolunmaz zərər vurmamalıdır;

2. mübahisələndirilən inzibati aktın qanuniliyinə dair ciddi şübhələr olmalıdır.

Həmçinin, müvəqqəti tədbirlərin tətbiqi zamanı nəzərə alınan bu meyarlar (ciddi və bərpaolunmaz zərər və qanuniliyinə dair ciddi şübhə)

qanunvericiliklə tənzimlənən aralıq icra hallarında da məhkəmələr tərəfindən tətbiq olunur [6].

Bəzi hallarda inzibati orqan məhkəmədən qərarın necə icra olunacağına dair əlavə göstərişlər də tələb edə bilər. Məsələn, Fransada İnzibati Ədalət Məcəlləsinin L. 911-4-cü maddəsi inzibati orqanlara Dövlət Şurasından qərarın icra mexanizmləri ilə bağlı izahat tələb etməyə icazə verir. Bu vəzifə Dövlət Şurasının Hesabatlar və Tədqiqatlar Şöbəsinə həvalə olunur [4].

Bəzi sistemlərdə məhkəmə qərarlarının icrası birbaşa məhkəmənin deyil, inzibati orqanların səlahiyyətində olur, lakin bu proses məhkəmənin və ya xüsusi qurumların nəzarəti altında həyata keçirilir. Bu, məsələn, İsveçdəki İcra Orqanlarına (Enforcement Authorities) aiddir [6].

Bəzi dövlətlərdə məhkəmələrin tətbiq etdiyi pul cərimələrinin miqdarına qanunvericiliklə məhdudiyyət qoyulmuşdur. Malidə "300.000" adlı presedent hüququna əsasən inzibati orqanın məsuliyyəti 300.000 frankla məhdudlaşdırılır. Azərbaycan Respublikası İPM-nin 120.2-ci maddəsinə əsasən İPM-in 120.1-ci maddəsinə uyğun olaraq müəyyən edilmiş müddətdə inzibati orqan tərəfindən onun üzərinə qoyulmuş öhdəliklər icra olunmadıqda, məhkəmə cərimənin məbləğini müəyyən edə və inzibati orqanı həmin məbləğdə cərimə edə bilər. Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 120.3-cü maddəsinə əsasən cərimə 50.000 AZN-dək ola bilər. Cərimə təkrar təyin oluna və məcburi qaydada tutula bilər [1]. Əksinə, Almaniyada Federal Konstitusiya Məhkəməsi belə məhdudiyyətlərin effektiv icranı pozduğunu və bununla da effektiv hüquqi müdafiə hüququna *(effektiver Rechtsschutz)* zərər vurduğunu bəyan etmişdir [2].

Bundan əlavə, bəzi ölkələrdə digər dövlət orqanları da məhkəmə qərarlarının icrasında rol oynaya bilər. Fransada Ombusdman inzibati orqanların davranışlarını illik hesabatda qeyd edərək konkret hüquqi tədbirlər və öhdəliklər nəzərdə tutulur. Hesabatda məhkəmə qərarlarının icra olunmamasının qeyd edilməsi həmin orqanlara qarşı əlavə ictimai və hüquqi təzyiq yaradır [7].

Məhkəmədənkənar razılaşmaların icrası da inzibati məhkəmə icraatında əhəmiyyətli yer tutur. Benin, Çin, Finlandiya, Niderland, İspaniya və İngiltərə və Uels qanunvericiliklərinin təhlili bu mexanizmlərin tətbiqini əks etdirir. Xüsusilə Çin, Niderland və İspaniyada bu cür razılaşmaların icrası məhkəmə nəzarəti altında həyata keçirilir. Razılaşmalar iki formada ola bilər:

1) mübahisənin əsas predmeti üzrə razılaşma;

2) icranın konkret üsulu üzrə razılaşma.

Niderland, İspaniya, İngiltərə və Uels daha çox birinci növ razılaşmaları, Benin və Finlandiya isə ikinci növ razılaşmaları inkişaf etdirmişdir. Çin hüququ hər iki formaya icazə verir. Lakin inzibati orqanın qərarın icra olunmaması səbəbindən kompensasiya ödəmək məcburiyyətində qalması qərarın icra olunması öhdəliyini ləğv etmir [3, s. 1032-1033].

**Nəticə**

Tədqiqatın nəticəsi göstərir ki, bir sıra ölkələrdə inzibati məhkəmə qərarlarının icrası məhkəmənin fəal nəzarəti və xüsusi icra institutları hesabına daha çevik təmin olunur.

İspaniyada məhkəməyə "qərarı icra etdirmək" səlahiyyətinin konstitusion təminatı və həm birbaşa, həm də dolayı əvəzetmə alətləri, Fransada astreinte tipli gündəlik cərimə, təcili müdafiə mexanizmləri *(référé)* və məzmun etibarilə yüksək dərəcədə konkretləşdirilmiş qərarlar, Almaniyada Mülki Prosessual Məcəllənin mexanizmlərinin inzibati məhkəmə qərarlarının icrasına inteqrasiyası və proporsionallıqla ən effektiv və ən az yükləyici vasitənin seçilməsi, İsveçdə vahid icra orqanı *(Kronofogden)* və bütün qərarlar üçün unifikasiya olunmuş icra qaydası, İtaliyada administrativ passivlik halları üçün *commissario ad acta* institutu, parlamentar və ombudsman nəzarətinin müxtəlif modelləri (məsələn, Birləşmiş Krallıq və Şimali İrlandiya) məhkəmə qərarının icrasının səmərəliliyini artırır. Azərbaycan hüqu-

qunda İPM-in 79, 116.2 və 120.2-ci maddələri məhkəmə qərarlarının icrasına dair əsas normaları nəzərdə tutur, könüllü icra baş tutmadıqda məcburi icra və təkrarlana bilən 50.000 AZN-ədək cərimə imkanı verir. Bununla yanaşı, belə nəticəyə gələ bilərik ki, xarici ölkələrin qanunvericilikləri ilə müqayisədə öhdəliyin icrası haqqında iddialara dair inzibati məhkəmə qərarlarının icrasının effektivliyini artırmaq üçün aşağıdakı istiqamətlərdə təkmilləşdirmələr məqsədəuyğun olacaqdır:

1. Öhdəliyin icrası haqqında məhkəmə qərarının nəticə hissəsinin daha konkret və dəqiq tərtib edilməsi qərarın icra mərhələsində mübahisələrin minimallaşması ilə nəticələnəcəkdir. Öhdəliyin icrası haqqında iddialara dair məhkəmə qərarında inzibati orqan tərəfindən icra edilməli olan faktiki xarakterli hərəkətlərin həyata keçirilməsi müddətlərinin, hərəkətin konkret məzmununun, o cümlədən hərəkəti icra etməli olan məsul qurumun və texniki icra üsulunun nəzərdə tutulması məhkəmə qərarının daha dəqiq və tez bir zamanda icrasına şərait yaradacaqdır.

2. Mövzunun təhlili nəticəsində belə qənaətə gələ bilərik ki, mövcud cərimə sanksiyasına əlavə olaraq *“astreinte”* tipli gündəlik cərimənin normativləşdirilməsi və icra müddəti bitən kimi avtomatik hesablanması, habelə gecikmə faizlərinin tətbiqi cavabdeh inzibati orqan tərəfindən faktiki xarakterli hərəkətlərin həyata keçirilməsini təmin etmək məqsədilə real təzyiq mexanizmləri tətbiq olunacaqdır.

3. Azərbaycan Respublikası inzibati prosessual qanunvericiliyində İtaliya və Lüksemburq təcrübəsinə uyğun neytral “əvəzedici icra” nümayəndəsinin *(commissario ad acta tipli)* institusionallaşdırılması və tədbirlərin məhkəmə nəzarətinə tabe olması öhdəliyin icrası haqqında məhkəmə qərarlarının üçün real hüquqi vasitə olacaqdır.

**İstifadə edilmiş ədəbiyyat siyahısı:**


1. Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi // 30 iyun 2009-cu ildə qəbul edilmişdir (28 fevral 2025-ci ildə dəyişiklik). URL: https://e-qanun.az/framework/46956
2. Bundersverfassungsgericht: [Elektronische Ressource] / BVerfGE 40, 237.-1975. URL: https://www.servat.unibe.ch/dfr/bv040237.html
3. CandanTurgut. Açıklamalı İdari Yargılama Usulü Kanunu. – Ankara: Yetkin Yayınları, – 2023. – 1714 s.
4. Code de justice administrative (CJA).- Adopté en 2000 (modifié le 12 juillet 2025). URL: https://www.legifrance.gouv.fr/loda/id/LEGISCTA000006150389
5. Constitución Española: [Recurso electrynico] // Boletнn Oficial del Estado.– Aprobada en 1978.-Norma suprema del Reino de Espaca. URL: https://www.boe.es/buscar/act.php?id=BOE-A-1978-31229 (ъltimo acceso 24.09.2025)
6. International Association of Supreme Administrative Juridictions ( IASAJ / AIHJA): VIIIth Congress - Madrid 2004 [Electronic resource] // Official website of the IASAJ/AIHJA. 2004. Madrid.- URL: https://www.aihja.org/wp- content/uploads/2022/12/IASAJ_Generalreport 2004.pdf (last accesses 10.08.2025)
7. Ley 29/1998,reguladora de la Jurisdicciyn Contencioso-Administrativa ( LJCA): [Recurso electrynico] // Boletнn Oficial del Estado.- Aprobada en 1998. – Publicaciyn oficial del Reino de Espaca. – URL: https://www.boe.es/buscar/act.php?id=BOE-A-1998-16718 (altimo acceso 05.03.2025)
8. Loi orqanique n° 2011-333 du 29 mars 2011 relative au Défenseur des droits: [Ressource électronique] // Adoptée le 29 mars 2011. – Journal Officel de la République Française. URL: https://www.legifrance.gouv.fr/loda/id/JORFTEXT000023781167 (consulté le 29.10.2025).
9. Karahanoğulları Onur. İdari Yargı-İdarenin Hukuka Zorlanması (Yargı Kararlarına Dayalı Bir İnceleme).-Ankara: Turhan Kitabevi, – 2024.– 928 s.
10. Sübhan Əliyev. İnzibati Prosessual Məcəllənin Kommentariyası. – Bakı: Elm və Təhsil, – 2024. – 777 s.
11. Türkiye Cümhuriyyeti Anayasası // 7 kasım 1982 tarihinde kabul edilmişdir (son değişiklik: 30 Ocak 2021). URL: https://www.mevzuat.gov.tr/mevzuat?MevzuatNo=2709&MevzuatTur=1&MevzuatTertip=5

**Алиев Субхан Фармаил оглу**,
адвокат в юридической фирме «Sirius»,
профессор Бакинского государственного университета,
доктор юридических наук
**Маммадли Лала Фирдовси гызы**,
адвокат в юридической фирме «Sirius», лектор Академии Государственного таможенного комитета Республики Азербайджан, докторант по специализации «Административное, финансовое и информационное право» кафедры конституционного права юридического факультета Бакинского государственного университета

## ОСОБЕННОСТИ ИСПОЛНЕНИЯ СУДЕБНЫХ РЕШЕНИЙ, СВЯЗАННЫХ С ИСКАМИ О ВЫПОЛНЕНИИ ОБЯЗАТЕЛЬСТВ

### РЕЗЮМЕ

Исполнение судебных решений по искам о выполнении обязательств в административном производстве является одной из ключевых стадий механизма правовой защиты и играет решающую роль в обеспечении верховенства права. В настоящей статье анализируются механизмы исполнения решений административных судов с точки зрения сравнительного права в различных юрисдикциях. Особое внимание уделяется правовым основаниям исполнения, обязанностям административных органов, полномочиям судебного надзора, мерам принудительного исполнения, юридической и фактической невозможности исполнения, финансовым санкциям и институту замещающего исполнения. В результате исследования делается вывод о том, что эффективность стадии исполнения может быть значительно повышена за счет вынесения более четких судебных решений, введения ежедневных штрафов (например, астренте), институционализации нейтральных лиц (например, *commissario ad acta*) и усиления судебного контроля.

**Aliyev Subhan Farmail,**
Attorney at "Sirius" Law Firm, Doctor of Law, Professor, Baku State University,
**Lala Firdovsi Mammadli,**
Attorney at "Sirius" Law Firm, Lecturer at the Academy of the State Customs Committee of the Republic of Azerbaijan, Doctoral Student "Administrative Law, Financial Law, and Information Law" specialty, Department of Constitutional Law, Faculty of Law, Baku State University

## THE ENFORCEMENT PROCESS OF JUDGMENTS RELATED TO CLAIMS FOR THE PERFORMANCE OF OBLIGATIONS

### SUMMARY

The enforcement of judgments concerning claims for the performance of obligations in administrative proceedings represents one of the most crucial stages of legal protection mechanisms and plays a decisive role in upholding the rule of law. This article analyzes the mechanisms of enforcing administrative court decisions from a comparative legal perspective across various jurisdictions. It examines the legal foundations of enforcement, the responsibilities of administrative authorities, judicial supervisory powers, compulsory enforcement measures, legal and factual impossibility, financial sanctions, and the institution of substitute enforcement. The study concludes that the effectiveness of the enforcement phase can be significantly enhanced through more precise judicial decisions, the introduction of daily fines such as *astreinte*, the institutionalization of neutral agents like *commissario ad acta*, and the strengthening of judicial oversight.

**Redaksiyaya daxilolma tarixi: 04.01.2026**
**Təkrar işlənməyə göndərilmə tarixi: 20.02.2026**
**Çapa qəbul olunma tarixi: 23.02.2026**